# Azərbaycanın təşəbbüsləri beynəlxalq aləmdə dəstəklənir

**Azərbaycan son illərdə bəşəriyyətin üzləşdiyi çağırışların – pandemiya ilə mübarizədə qlobal həmrəylik, formalaşan dünya nizamı, ərzaq təhlükəsizliyi, təhsilin inkişafı və s. kimi önəmli məsələlərin həllində ədalətli mövqe tutub, bu istiqamətlərdə müzakirə edilən beynəlxalq tədbirlərdə sülhün, anlaşma və dialoqun tərəfdarı kimi çıxış edib. Bir sözlə, dünyada sülh, əməkdaşlıq, təhlükəsizlik və sabitlik işinə ləyaqətlə yanaşıb.**



Azərbaycan Prezidenti İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri Si Cinpin və Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel arasında iyunun 2-də olan telefon söhbətində də bu məsələlər önə çəkilib.

Dövlətimizin başçısı və Çin Xalq Respublikasının Sədri tərəfindən COVID-19 pandemiyası dövründə hər iki ölkənin həqiqi dostluq nümayiş etdirərək, çətinliklərin öhdəsindən gəldikləri və bir-birini dəstəklədikləri məmnunluqla qeyd edilib. Prezident İlham Əliyev COVID-19 pandemiyası ilə mübarizədə dəstəyə görə Si Cinpinə təşəkkürünü bildirib.

Telefon söhbətində Azərbaycan və Çinin siyasi, iqtisadi və nəqliyyat-logistika sahələrində də uğurla əməkdaşlıq etdikləri vurğulanıb. Prezident İlham Əliyev Azərbaycanın Çinlə əlaqələrini daha da möhkəmləndirməyə hazır olduğunu qeyd edərək, Çin şirkətlərinin respublikamızda fəaliyyətinin daha da genişləndirilməsini alqışlayıb.

Dövlətimizin başçısı, eyni zamanda, Çin Kommunist Partiyasının yaranmasının 100 illiyi münasibətilə səmimi təbriklərini ÇXR Sədri Si Cinpinə çatdırıb.

Çin Xalq Respublikasının Sədri iki ölkə arasında münasibətlərin yeni tarixi mərhələnin astanasında olduğunu, ənənəvi dostluğun inkişaf etdirildiyini, əməkdaşlığın dərinləşdirildiyini və qarşılıqlı dəstəyin artırıldığını bildirərək, Azərbaycanın "Bir kəmər bir yol" təşəbbüsünün reallaşdırılması istiqamətində vacib tərəfdaş olduğunu, eyni zamanda, Çinin Azərbaycan xalqının seçdiyi inkişaf yolunu dəstəklədiyini vurğulayıb.

Yeri gəlmişkən, xatırladaq ki, 2019-cu ilin aprel ayında Pekində keçirilən II "Bir kəmər, bir yol" Beynəlxalq Əməkdaşlıq Forumunda Çin Xalq Respublikasının sədri Si Cinpinin 2013-cü ildə elan etdiyi "Bir kəmər, bir yol" adlı yeni iqtisadi inkişaf strategiyası tarixi İpək Yolu üzərində yerləşən dövlətlər də daxil olmaqla Çinin xarici ölkələrlə qarşılıqlı əlaqələrinin inkişafına və ticari-iqtisadi əməkdaşlığın genişlənməsi ilə bağlı müvafiq infrastruktur yaradılmasına yönəlib. Bu strategiya tarixi İpək yolu və dəniz İpək yolu kimi iki mühüm inkişaf istiqamətini əhatə edib.

Avrasiyanın mərkəzində, Şərq ilə Qərbin qovuşuğunda yerləşən Azərbaycan tarixi İpək yolunun mühüm önəm daşıyan ölkələrindən biri olub. Son18 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın hərtərəfli inkişafı ilə paralel, ölkəmizin nəqliyyat-tranzit potensialının müasirləşdirilməsi istiqamətində nəhəng işlər görülüb.

Azərbaycandakı 7 beynəlxalq hava limanı, Bakı yük terminalı, Ələt Ticarət Limanı, ən müasir yük gəmilərinə malik Xəzər dənizindəki yük donanması, 2017-ci ildə istifadəyə verilən və Avropa ilə Çin arasında ən qısa dəmir yolu bağlantısını təmin edən Bakı-Tbilisi-Qars dəmir yolu xətti ölkəmizin nəqliyyat-tranzit sahəsində qısa müddətdə əldə etdiyi uğurlardır. Azərbaycan rəhbərliyi ölkəmizin coğrafi mövqeyi və yuxarıda qeyd olunan nəqliyyat-tranzit infrastrukturundan səmərəli istifadə etməklə, regionda və dünyada yük daşımalarında mövqeyinin daha da yüksəlməsinə nail olmaq üçün ciddi iş aparır. Təbii ki, bu istiqamətdə dünyanın ikinci iqtisadiyyatına malik olan Çin ilə əlaqələr xüsusi əhəmiyyətə malikdir.

Dünyanın ən böyük ixracatçısı və ən böyük ikinci idxalçı ölkəsi olan Çin özünün xarici ticari-iqtisadi əlaqələrini daha da dərinləşdirməkdən ötrü irəli sürdüyü "Bir kəmər, bir yol" strategiyası Azərbaycan üçün də yeni əməkdaşlıq imkanları yaradır. Azərbaycan Çinin bu yeni təşəbbüsünün əməkdaşlıq, birgə inkişaf üçün yaratdığı imkanları düzgün qiymətləndirən, strategiyanı dəstəkləyən ilk ölkələrdən biri olub. Prezident İlham Əliyevin 2015-ci ilin dekabrında Çinə səfəri zamanı "Bir kəmər, bir yol" strategiyasının tərkib hissəsi olan tarixi İpək yolu iqtisadi kəmərinin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu imzalanıb.

Son vaxtlar ölkələrimiz arasındakı əməkdaşlıq əlaqələri daha dinamik şəkildə inkişaf etdirilir. ÇXR sədri Si Cinpinin təşəbbüsü ilə irəli sürülən "Bir kəmər, bir yol" layihəsi ölkəmiz üçün çox cəlbedicidir. Tarixi İpək yolunun bərpası Azərbaycan üçün hər zaman aktualdır. Bu yol hər zaman Azərbaycan və Çin xalqlarını birləşdirən bir vasitə kimi diqqət çəkir. Hazırda "Bir kəmər, bir yol" layihəsi çərçivəsində mühüm tədbirlər reallaşdırılır. Azərbaycan "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəkləyir və bu istiqamətdə müəyyən addımlar atılır.

Çin Xalq Respublikasının Sədri telefon söhbətində ölkəsinə məxsus şirkətlərin Azərbaycana investisiya qoyuluşunu daha da təşviq etməyə, infrastruktur layihələri çərçivəsində əməkdaşlığı gücləndirməyə hazır olduqlarını bildirib. Eyni zamanda, Si Cinpin Çinin Azərbaycandan yüksək keyfiyyətli xüsusi məhsulları idxal etmək niyyətində olduğunu vurğulayıb.

Prezident İlham Əliyevlə Avropa İttifaqı (Aİ) Şurasının prezidenti Şarl Mişel arasında telefon söhbəti də bir sıra məqamları ilə diqqət çəkib. Belə ki, söhbət zamanı hər iki tərəf Azərbaycanla Aİ arasında əlaqələrin getdikcə inkişaf etdiyini, enerji təhlükəsizliyi sahəsində əməkdaşlığın məmnunluq doğurduğunu, Cənub Qaz Dəhlizi layihəsinin başa çatmasının mühüm uğur olduğunu qeyd edib.

Telefon söhbətində Azərbaycan, Ermənistan və Rusiya liderləri arasında 2020-ci il noyabrın 10-da imzalanan üçtərəfli Bəyanatdan sonra regionda təhlükəsizlik və sabitliyin təmin olunması məsələləri də müzakirə olunub.

Aİ Şurasının prezidenti Şarl Mişel rəhbəri olduğu qurumun Azərbaycan və Ermənistan arasında sərhədlərin delimitasiyası və demarkasiyası prosesinin, habelə iki ölkə arasında etimad quruculuğu tədbirlərinin başlanmasına dəstək verməyə hazır olduğunu bildirib. O, eyni zamanda, Azərbaycan və Ermənistan tərəfindən saxlanılan şəxslər, tam şəffaflıq şəraitində mina və digər humanitar məsələlər üzrə əməkdaşlıq etməyə çağırıb.

Dövlətimizin başçısı Azərbaycanın Ermənistanla sülh sazişinin imzalanması üçün danışıqlara başlamağa hazır olduğunu qeyd edərək, Ermənistanın hələ də bu çağırışa cavab vermədiyini vurğulayıb. Aİ Şurasının prezidenti hər iki tərəfi konstruktiv mühitdə danışıqlar aparmağa çağırıb.

Qeyd edək ki, Azərbaycan ilə Aİ arasında əməkdaşlığın inkişafı ölkəmizin xarici siyasətinin əsas prioritetlərindən biridir. Bunun nəticəsidir ki, respublikamızla Aİ arasında əlaqələr enerji, investisiya, ticarət və s. sahələrdə yüksək səviyyədə inkişaf edib, bu beynəlxalq təşkilat Azərbaycanın əsas ticarət tərəfdaşlarından birinə çevrilib. Respublikamız isə Avropa bazarlarına xam neft nəqlini həyata keçirən etibarlı təchizatçı kimi tanınıb və yaxın zamanda ölkəmizin Aİ-yə üzv dövlətləri təbii qazla da təchiz edəcəyi nəzərdə tutulub. Respublikamızda Aİ ilə birgə müxtəlif proqramlar və layihələr də uğurla reallaşdırılıb.

Yeri gəlmişkən, qlobal güc mərkəzi olan Aİ Azərbaycanın ən vacib tərəfdaşlarından biridir. Bu quruma üzv dövlətlərin üçdəbir hissəsi ilə Azərbaycan Strateji Tərəfdaşlıq adlanan sənədləri və bəyannamələri imzalayıb. Məhz bunun nəticəsidir ki, ölkəmizin ticarət dövriyyəsinin yarıdan çoxu Aİ-nin payına düşür.

Onu da deyək ki, Aİ daim balanslı siyasət həyata keçirib. Bu, 44 günlük Vətən müharibəsi dövründə də aydın nəzərə çarpıb. Yeri gəlmişkən, bu çərçivədə Fransa istisna təşkil edərək, balansı pozub və ermənipərəst mövqe nümayiş etdirib.

Əlbəttə, bu cür sıx münasibətlər Aİ-nin Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə dəstəklə bağlı birmənalı mövqeyi fonunda formalaşır. Bununla əlaqədar bir məqamı xatırlatmaq istərdik. Belə ki, Aİ-nin Şərq Tərəfdaşlığı ölkələri ilə münasibətlərində suverenlik və ərazi bütövlüyü əsas element olaraq xüsusi yer tutur. Elə bu səbəbdəndir ki, Şərq Tərəfdaşlığı sammitlərində Azərbaycanın mövqeyi qəti olur və müdafiə edilir. Bu mənada Şərq Tərəfdaşlığının bu il iyunun 18-də keçirilən sammiti də istisna təşkil etmədi və Azərbaycanın Ermənistan üzərində növbəti siyasi qələbəsi kimi tarixə düşdü.

Xatırladaq ki, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel bu təşkilatın Azərbaycan və Ermənistan arasında sərhədlərin delimitasiyası və demarkasiyası prosesinin, iki ölkə arasında etimad quruculuğu tədbirlərinin başlanmasına dəstək verməyə hazır olduğunu bildirməsi də mühüm önəm daşıyır. Yeri gəlmişkən, bu kontekstdə Aİ münaqişələrin tənzimlənməsi və sülh yaradılmasında (Balkanlar), xüsusilə minadan təmizləmə sahəsində böyük təcrübəyə malikdir.

Prezident İlham Əliyev də Aİ-nin fəaliyyətinə yüksək dəyər verib. Məsələn, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin "Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri" adlı videoformatda keçirilən müzakirələrində ifadə etdiyi "Avropa İttifaqı regionda münaqişədən sonrakı inkişafda çox mühüm rol oynaya bilər, çünki Cənubi Qafqazın üç ölkəsi ilə Avropa İttifaqının çox geniş əməkdaşlıq gündəliyi var" fikri bunun bariz ifadəsidir.

Burada Aİ ilə Azərbaycan arasında birgə iqtisadi layihələrin, Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfənin, o cümlədən TAP layihəsinin mühüm önəm daşıdığını da qeyd etmək yerinə düşər.

Aİ-nin Azərbaycanın əsas ticarət tərəfdaşı olması da respublikamız üçün mühüm önəm daşıyır. Belə ki, bu gün ölkəmiz tərəfindən gerçəkləşdirilən icarət əməliyyatlarının təqribən 50 faizi Aİ-yə üzv dövlətlərin payına düşür. On beş ilə yaxındır ki, Azərbaycan Avropa bazarlarına xam neft nəql edən etibarlı təchizatçıdır. Yuxarıda xatırlatdığımız kimi, yaxın vaxtlarda isə respublikamız Aİ-nin üzv dövlətlərini təbii qazla da təchiz edəcək.

Azərbaycanı Aİ bazarlarına bağlayacaq 3500 kilometrlik inteqrasiya edilmiş boru kəməri sistemi olan Cənub Qaz Dəhlizinin tikintisinin təşəbbüskarı da məhz bu beynəlxalq qurumdur. Xatırladaq ki, hazırda Aİ-yə üzv ölkələr tərəfindən Cənub Qaz Dəhlizi enerji əməkdaşlığı, enerji təhlükəsizliyi və enerjinin şaxələndirilməsi layihəsi kimi dəyərləndirilir.

*V.BAYRAMOV, "Xalq qəzeti"*